Kərəm SALAHOĞLU - 75

# POEZİYA - HƏYATIN AHƏNGİ, SÖZÜN RƏNGİ

*Poeziyanın obrazlı təfəkkür olduğu çoxdan sübut olunmuş bir həqiqətdir. Poeziyanın həm də şair qələminin süzgəcindən keçmiş dərd, həsrət, torpaq, yurd həsrəti, torpağa, dünyaya, məhəbbətə, arzuya qovuşmaq istəyidir desək, yanılmarıq. Mən Kərəm Salahoğlunun "Yurd həsrətli misralar" kitabını oxuduqda, onun bu yeni poetik tədqiqatları ilə tanış olduqda buna bir daha əmin oldum ki, K.Salahoğlu dərdlərimizdən xilas olmağın yolunu həm özümüzdə, həm də dərdlərimizin işığı olan poeziyamızda görür.*

**Mətləb MİSİR**

*İnsanlarda bir-birlərinə qarşılıqlı sevgi, şəfqət, mərhəmət duyğuları oyanmalıdır. Mənfəət, eqoizm, düşmənçilik, bədxahlıq, mərdimazarlıq hisslərinə adamların ürəklərində yer olmamalıdır. Bu əsaslar insanların xislətində kök sala bilsə, onda bəşər övladı həqiqətən yer üzünün əşrəfinə çevrilər. Dünya köhnə dünyadır, dönən, dəyişən isə bir zamandır, bir də canlı, cansız varlıqlardır. Cahan bir münbit tarladır. Yaxşı-pis hər kəs öz əməllərini əkir. Mən də bir imtahan məqamından keçməkdəyəm.*

**Kərəm SALAHOĞLU**

## Kərəmin Şuşası - Şuşanın Kərəmi



Yaşımın söz qanan çağından üzü bəri nə vaxt, harada, kimdən Kərəm adı eşitmişəmsə, ona dörd gözlə baxmışam. Elə bilmişəm ki, gözümün qabağında sinəsi yanan Kərəmin özünü görəcəm. O Kərəmin ki, eşqinin sorağında diyar-diyar gəzmiş, Ərzurumun Gədiyində qara düşmüş, ayrılığın qaynar qazanında bişmiş, vüsalın bircə addımlığında yanıb kül olmuş Kərəmi görəcəm.

Kərəm Salahoğlunu son günlərəcən bircə dəfə də görməmişdim. Amma "Kredo"nun poçtunda Kərəm Salahoğlu adı ilə gəlmiş şeirlərə baxdım, xüsusilə birinci şeiri "Şuşa"nı elə bir nəfəsə oxudum. Elə bildim ki, elə o uzaq zamandan Xan oğlu Kərəmin dərdini, yanğısını zamanımıza gətirən oğul Kərəmi görürəm.

Nə gizlədim, sevindim. Kərəmlər ölməyib, Kərəmlər bitib... amma tükənməyib. Kərəm Salahoğlu 1 noyabr 1949-cu ildə Füzuli rayonun Aşağı Alxanlı kəndində dünyaya gəlib. 60-cı illərin ortalarından üzü bəri şeirləri ilə mətbuatda görünüb. Bugünkü qaynar ədəbi mühitin bir az gözündən iraq olsa da, Qarabağın - Haramı düzünün yanğısı ilə sinəsində ocaq çatıb, söz bişirib.

İndiyəcən neçə kitabı çap olunub. Sayı ona çatmaqdadır. Hələ nəşrini, növbəsini gözləyən kitabları da var. Məni Kərəmə bağlayan bir incə məqam da var. Uşaqlıq çağlarında qışı Haramı düzündə keçirən atamın fermasına gedərdik. 4-cü sinifdə oxuyan bir uşağın yaddaşında qalan budur: Aşağı Alxanlının qabağında avtobusdan düşərsən. Oradan sola dönüb güclə görünən maşın yolu ilə düzə sarı gələrsən. İndi elə bildim ki, Aşağı Alxanlıda doğulub böyümüş olan Kərəm Salahoğlu məni elə həmin yollarla təzədən Haramı düzünün ilan mələyən çöllərinə tərəf çağırdı. Yurdun başına gələn, elə sözün də başına gəldi. Yurd haradan yaralandı, söz də oradan yaralandı. Yurdun qanı haradan süzürdüsə, elə sözün də qanı da o yerdən süzülürdü.

Qarabağ... Şuşa... təkcə təbii gözəllikləri, varı, sərvəti, bağlarının barı, bəhəri ilə varlı deyil. Həm də ruhu göylərdə gəzən insanları ilə varlıdır.

İkicə kitabının adını çəkəcəm. "Atamın etirafı"... "Yurd həsrətli şeirlər"... istədiyin vərəqi çevir, sözün odu, alovu elə məqamındaca dilini, ağzını qarsacaq, üzünü pörşələyəcək. Və bir daha inandım ki, ata-ana istəyinin barı, bəhəri olaraq qoyulan ad heç də təsadüfi doğulmur. Bəlkə də hansısa bir mistik hissin təsiri altında ad insanın boyuna biçilir.

Düşünürəm ki, Kərəm adı elə bu gün Kərəm Salahoğlu kimi tanıdığımız şairin doğulduğu gündən boyuna biçilib. Kərəm Salahoğlu kimsənin yanınca düşüb özünü kimsəyə göstərmək niyyəti ilə şəkil də çəkdirən deyil. Amma onun bütün şeirlərinin yanında görünən bir obraz var. Bu elə onun öz obrazıdır. Şeirlərinin ritmi, ahəngi ilə, sözünün rəngi ilə təzahür edən obrazı. Tarixi Qarabağın ayaq tutub yeridiyi günlərdən bəri əli qələm tutanın hamısı "Qarabağnamə" yaradıb. Tarixçilər də, publisistlər də, şairlər də, yazıçılar da Qarabağı tərənnüm edə-edə heç özlərinin də xəbəri olmayıb ki, yaratdıqları "Qarabağnamə"lərin baş qəhrəmanına çevriliblər.

Kərəm Salahoğlunun 75 illik yubiley bayramı bir neçə aydan sonra başlayacaq. Nə qədər çəkəcək, kimlərin təqdirini görəcək, kimləri özünün bayram ovqatına qatacaq, kimlər də bu ovqatdan kənarda qalacaq - bu artıq həyatın gətirəcəyi qismətdir.

Amma Kərəm Salahoğlunun varlığına hopmuş bir buta sevgisi var. Bu da Qarabağ sevgisidir, Şuşa məhəbbətidir. Düşünürəm ki, Şuşanı sevmədən, Şuşaya vurğun olmadan heç sözün Kərəmi olmaq da mümkün deyil. Kərəm Salahoğlunun "Şuşa"sı sözə çevrildiyiməqamdan elə muğam üstə köklənib.

**Bağrı yüz parə olan, bir yaralı candı Şuşa!**
**Hər daşı, hər qayası bir ər, bir aslandı Şuşa!**

Düşünürəm ki, şeirin motivinin diktəsi ilə belə bir qənaət çox doğrudur. Müəllif yaralı Şuşanı, bağrı qan Şuşanı qədərincə ruhunda həsrətlə, yanğı ilə yaşadıb. Və axır ki, bir zamanı gəlib, bu yanğıları o, sözə çevirib.

Şuşanın azadlıq sədası, yağı pəncəsinin qırıldığı, yağı gicgahının dəmir yumruq zərbəsi ilə əzildiyi zamanın, çağın özü Şuşa sevincinin dumanlardan parlayıb çıxdığı anların şahidliyi ilə üzə çıxır.

Kərəm Salahoğlu üçün Şuşa adi bir yaşayış yeri deyil; ruhlar məkanıdır. Qarabağın söz, səs ünvanıdır. Və elə bu səbəbdən də Kərəm Salahoğlunun Şuşa adı ilə çağlayan duyğularında biz Qarabağın ünlü sənətkarlarının adlarını oxuyuruq. Bu adların təsiri altında təzədən şuşalı oluruq:

**Müzəffər ərlərinə ruhları xoş nəğmə deyən,**
**Ünlü ustadlarımız Cabbar, Seyid, Xandı Şuşa.**

Kimsəyə sirr deyil ki, Şuşa havası, Şuşa suyu, bir sözlə, Şuşa mühiti cansızlara can bəxş etmək gücündədir. Elə bu səbəbdən də şair Şuşanı əfsanəvi behiştin real bir məkanı kimi görür:

**Ən ali guşəsidir gözəl behiştin bu şəhər,**
**Xarı bülbül qoxulu güldü, gülüstandı Şuşa.**

Xarı bülbülün,Şuşa ecazkarlığının, bir sözlə, Qarabağ möcüzəsinin nə demək olduğunu müəllif elə bu odlu misralarla közə çevirir və Şuşanı duymaq istəyənlərin hər birini bu odlu közlərə qonaq edir. Onu da deyək ki, elə şeirin özünün motivindən də göründüyü kimi şair daha Şuşa üçün ağlamır, amma Şuşanın tərənnümünü qürurla sözə çevirir. Sevgi ilə, məhəbbətindən barınmış bir aşiq duyğuları ilə bəhs edir.

Şuşa dağlarının mavi dumanlı, gözqamaşdıran günəş şüaları kimi közərən qırmızılığı, meşələrinin yaşıl tumanlılığı misranın içindən çıxıb oxucunun qəlbini vəcdə gətirir. Kimdir ki, bayrağının dalğalanan boyuna baxıb qürurlanmasın:

**Bürünüb dağlarımız rənginə bayraqlarımın,**
**Zəfərin bərqinə bax, gör nə çıraqbandı Şuşa!**

Kərəm Salahoğlu Azərbaycan ordusunun zəfərini tərənnüm edir. Onun üçün Şuşanın azadlığı Azərbaycan dövlətinin gücüdür. Azərbaycan ordusunun qüdrətidir. Şuşa millətin milli qürur qaynağı, Natəvan Şuşa analığının simvoludur, rəmzidir. Kərəm Salahoğlu da elə bunu demək istəyir:

**Qovuşdu millətinə axır bu dağlar gözəli,**
**İstəyi hasil olan anam Natəvandı Şuşa.**

**Muğam aşiqlərinə, musiqi xadimlərinə,**
**Tanrıdan bəxşiş olan bir xoş aşiyandı Şuşa.**

Muğamın, tarın, kamançanın, dəfin... bir sözlə, səsin, sözün birliyi ilə Şuşa müasir Azərbaycanımızın ruhuna çevrilir. İnsanlıq bu dünyada da haqqın ədalətin beləcə bir gün bərqərar ola biləcəyinə bir daha inanır. Ataladan qalmış məşhur bayatıda deyidiyi kimi "sərkərdə qoçaq olsa, heç verməz ordu bada". Müharibə zamanı Ali Baş Komandanın siyasi iradə, tarixi bilgi, dünyanın ədalətsiz üzünə qarşı amansız savaşı gözlərimizin önündə canlanır. Ali Baş Komandın özünü elə Azərbaycanın özü kimi görürük:

**Düşmənin əzdi başın Ali Baş Komandanımız!**
**Dünyaya etdi bəyan Azərbaycandı Şuşa!**

Bir sözlə, bu dünyada da ədalətin olduğuna bir daha inandıq. Şair da "Şuşa" rədifli qəzəlinin mətləbində elə bu həqiqəti deyə bildiyi üçün məmnunluq hissi daşıyır. Sanki ulu Kərəm babalarına üz tutub "daha yanmağın qorxusu yoxdur" deyir.

**Ay Kərəm, yoxdu daha qorxusu yaddan, yağıdan,**
**Unudub dərdi-sərin, azaddı, şadmandı Şuşa!**

Kərəm Salahoğlu adının dərdini daşımaqdan yorulmayan söz sahibidir. O yaxşı bilir ki, poeziya həyatın harmoniyasıdır. Nə qədər ki, poeziya həyatın, dünyanın ahəngidir, deməli, həm də sözün rəngidir.

Qarabağın bir Kərəmi də var.

*Əli Rza* Xələfli
*07.06.2022*